Elmi Şuranın 03 oktyabr 2025-ci il tarixli
iclasının qərarı ilə təsdiq edilmiş (Protokol № 02)

BAKI BİZNES UNİVERSİTETİNİN TƏDQİQAT VƏ İNNOVASİYA MƏRKƏZİNİN ƏSASNAMƏSİ

1. Ümumi müddəalar

1.1. Tədqiqat və İnnovasiya Mərkəzi (bundan sonra – Mərkəz) Bakı Biznes Universitetinin (bundan sonra – Universitet) elmi-tədqiqat və innovasiya fəaliyyətinin əlaqələndirilməsi, inkişaf etdirilməsi və nəticələrinin tətbiqinə dəstək məqsədilə fəaliyyət göstərən struktur bölməsidir.

1.2. Mərkəz öz fəaliyyətində Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyini, elm və təhsil sahəsində attestasiya və akkreditasiya normalarını, müvafiq əsasnamələri, Universitetin daxili qaydalarını, Elmi Şuranın qərarlarını, rektorun əmrlərini və sair bu kimi sənədləri rəhbər tutur.

1.3. Mərkəz Universitetin kafedraları, fakültələri, magistratura və doktorantura üzrə struktur bölmələri, kitabxana və digər struktur vahidləri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Mərkəzin fəaliyyəti şəffaflıq, akademik dürüstlük, elmi keyfiyyət, nəticəyönümlülük, bərabər imkanlar, etik davranış və davamlı inkişaf prinsiplərinə əsaslanır.

2. Mərkəzin məqsədi

2.1. Elmi tədqiqat sahəsində kafedra və fakültələrlə əlaqələrin genişləndirilməsi.

2.2. Universitetdə rəqabətqabiliyyətli elmi-tədqiqat, innovasiya mühitinin formalaşdırılmasını və tədqiqat potensialının gücləndirilməsini, elmi nəticələrin tədrisə və praktikaya inteqrasiyasını təmin etmək.

2.3. Milli və beynəlxalq tədqiqat əməkdaşlığını genişləndirmək, qrant və sifarişli tədqiqatları artırmağa, intellektual mülkiyyətin qorunmasına və elmi nəticələrin kommersiyalaşdırılmasına şərait yaratmaq.

3. Fəaliyyət istiqamətləri

3.1.Magistratura və doktorantura səviyyəsində elmi tədqiqatların keyfiyyətini təmin etmək, dissertasiyaların hazırlanması və müdafiəsini təşkil etmək

3.2.Kafedraların akademik heyətini elmi tədqiqat fəaliyyətində stimullaşdırmaq.

3.3.İxtisaslar üzrə tədris planında (magistratura və doktorantura səviyyələrində) tədqiqat yönümlü fənlərin nəzərə alınması

3.4.Elmi tədqiqatın kommersiyalaşdırılması məqsədilə kafedralara dəstək vermək.

3.5.Tələbə elmi cəmiyyətləri və gənc tədqiqatçılar üçün layihə çağırışları təşkil etmək.

3.6. Birgə tədqiqat proqramlarının icrası.

3.7.Elmi məqalələrin nüfuzlu jurnallarda və beynəlxalq elmi bazalarda nəşrini təşfiq etmək,

3.8.Antiplagiat və akademik dürüstlük siyasətinin həyata keçirilməsi.

3.9.Elmi-tədqiqat xarakterli konfransların, seminarların, görüşlərin və s. tədbirlərin keçirilməsi

3.10.Tədqiqat proseslərinin vahid məlumat bazasında toplanması və monitorinqi.

4. Əsas vəzifələr

4.1. Müasir tədqiqat infrastrukturuna dair ehtiyacları müəyyənləşdirmək;

4.2. Tədqiqat laboratoriyalarının, cihaz və avadanlıqların mövcudluğunu və texniki vəziyyətini qiymətləndirmək;

4.3. Elmi heyətin, aktiv tədqiqat aparan professor-müəllim heyətinin, gənc alimlərin və tələbə-tədqiqatçıların fəaliyyətini təşviq edən şəffaf meyarlar, mükafatlandırma və digər dəstək mexanizmləri üzrə təkliflər vermək.

4.5. Tədqiqatçıların müxtəlif istiqamətlər üzrə beynəlxalq elmi məlumat bazalarına, elektron jurnallara və digər etibarlı resurslara çıxış ehtiyaclarını müəyyənləşdirmək.

4.6. Konfrans, seminar, simpozium, dəyirmi masa, tədqiqat görüşləri və elmi müzakirələr təşkil etmək;

4.7. Milli və beynəlxalq birgə proqramları, birgə tədqiqat proqramlarını və elmi şəbəkələrdə iştirak imkanlarını təşviq etmək.

4.8. Tədqiqat nəticələrinin dərslik, dərs vəsaiti, metodiki material, keys, tədris proqramı və digər tədris resurslarında istifadəsinə dəstək vermək.

4.9. Elmi məqalələrin, monoqrafiyaların, konfrans materiallarının və digər tədqiqat məhsullarının keyfiyyətli və nüfuzlu nəşrlərdə dərcini təşviq etmək;

4.10. Akademik heyət üçün elmi metodologiya, akademik yazı, araşdırma və təhlil metodları, tədqiqat etikası və innovasiya üzrə təlim və seminarlar təşkil etmək.

4.11. Elmi tədqiqatların nəticələrinin tədrisdə və əmək bazarında tətbiqini təşfiq etmək.

4.12. Elmi-tədqiqat fəaliyyətinin montorinqini keçirmək.

5. İdarəetmə və təşkilati fəaliyyət

5.1. Mərkəzi Universitetin rektoru tərəfindən təyin edilən rəhbər (müdir) idarə edir. Rəhbərin vəzifə və səlahiyyətləri əmək müqaviləsi və vəzifə təlimatı ilə dəqiqləşdirilir.

5.2. Rəhbər illik fəaliyyət planını və hesabatı hazırlayır, əməkdaşların işini əlaqələndirir, tədqiqat layihələri üzrə təkliflər təqdim edir və Universitetin rəhbərliyinin tapşırıqlarının icrasını təmin edir.

5.3. Mərkəzin ştat vahidləri, daxili iş bölgüsü və hesabatvermə xətti Universitetin təsdiq etdiyi təşkilati struktura əsasən müəyyən edilir.

6. Mərkəzin hüquqları və öhdəlikləri

6.1. Mərkəz səlahiyyətləri daxilində struktur bölmələrdən elmi fəaliyyətə dair məlumat tələb etmək, elmi tədbirlər və layihələr təşəbbüsü irəli sürmək, əməkdaşlıq təklifləri hazırlamaq və metodiki tövsiyələr vermək hüququna malikdir.

6.2. Mərkəz təqdim olunan məlumatların düzgünlüyünü yoxlamağa, şəxsi məlumatların və məxfi informasiyanın qorunmasına, müəlliflik hüquqlarına, etik qaydalara və Universitetin daxili prosedurlarına riayət etməyə borcludur.

7. Elmi fəaliyyətin stimullaşdırılması

7.1. Stimullaşdırma meyarları nəşrlərin keyfiyyəti, tədqiqat nəticələrinin praktik təsiri, qrantların cəlbi, patent və tətbiqlər, gənc tədqiqatçıların mentorluğu və akademik dürüstlük göstəricilərini nəzərə ala bilər.

7.2. Maliyyə mükafatları, ezamiyyət, nəşr dəstəyi və digər təşviqlər Universitetin rektorunun qərarı ilə mövcud maliyyə imkanları çərçivəsində tətbiq edilir.

7.3. Birgə layihələrdə tərəfdaşların funksiyaları, maliyyə şərtləri, məlumatların idarə edilməsi, nəşr və intellektual mülkiyyət hüquqları müvafiq müqavilələrdə müəyyən olunur.

8. Monitorinq, qiymətləndirmə və hesabatlılıq

8.1. İllik fəaliyyət planını hazırlamaq.

8.2. Elmi-tədqiqat fəaliyyətinin göstəricilərini müəyyənləşdirmək, dövri məlumat toplamaq, nəticələri təhlil etmək, qiymətləndirmə və təkmilləşdirmə tədbirləri üzrə hesabat hazırlamaq.

8.3. Monitorinq göstəricilərinə laboratoriya təminatı, aktiv tədqiqatçıların sayı, gənc tədqiqatçıların iştirakı, məlumat bazalarına çıxış, qrant müraciətləri və qazanılmış qrantlar, elmi gəlirlər, patentlər, kommersiyalaşdırma, əməkdaşlıqlar, birgə proqramlar, elmi tədbirlər, beynəlxalq iştirak, nəşrlər, istinadlar, tədrisə inteqrasiya, magistratura və doktorantura səviyyəsində yerinə yetirilən dissertasiyalar daxildir.

8.4. Mərkəz ən azı ildə bir dəfə nəticələr üzrə hesabat hazırlayır və Universitetin Elmi şurasına təqdim edir.